

ABŞ imperalizminə qarşı duran İranın mövqeyini dəstəkləmişəm. Yazdığım sözlərin birindən də imtina etmirəm. Yeri gələndə sionizmin də əleyhinə nə gəldi yazmışam. Durum deyim ki, peşmanam, bu yalan olar.

Amma, əmmaməli riyakarların vətənimə, millətimə qatı düşmənçilik nümayiş etdirmələrini görməzliyə vurmaq kişilikdən deyil. Min əzabəziyyətlə, on minlərlə soydaşımızın qanı, canı bahasına əldə edilmiş müstəqilliyimə xor baxan istənilən din xadiminə nifrət edirəm. Bəşər mədəniyyətinin xəzinəsinə ziqiymət sərvətlər vermiş, cəngavər oğullarının qılıncları ilə neçə-neçə imperiya yaratmış, İranın özünü dəfələrlə

# Azərbaycan uğrunda qurban getmiş yəhudi balası

## Albert Aqarunovun xatirəsi mənim üçün bütün din dəllallarından əzizidir

**Hamının gözü qarşısında baş verən vaqeələrdən niyə danışmalıyam? Keşiş-mason dünyasının giyena sürüsü naxələf övladları tərəfindən xarı-zəlil edilmiş Azərbaycanın altını üstünə çevirir, Silaha sarılıb milli namusun müdafiəsinə qalxmaq əvəzinə hərə bir partiya yaradır. Şəhərlər, kəndlər boşalır, bağbağat, yeraltı, yerüstü sərvətlər düşmənə qalır... Və belə ağır günlərdə, həftələrdə erməni cəlladlarını bağrına basıb, onların başlarını tumarlayan əmmaməli riyakarlar bizim dost-doğma "həmşəri bəradərlərimizə"əmr verirlər, ey İranın övladları, məqam çatdı, irəli, Arazdan şimalda nə qədər kənd-qəsəbə boşalıbsa, talayın, sökün, hamısı sizlərə haladır, daşıyın hər şeyi İrana.**

Doğrudan da əsl talan başladı, dəmir qapılar, darvazalar, məhəccərlər, dam örtükləri, qapı-pəncərələr, hətta daşlar belə sökülüb İrana daşındı. Erməni faşisti bir tərəfdən, fars irticasının qarşısında müti kölə kimi durmuş soydaşlarımız bir tərəfdən Qarabağa divan tutdular.

Bir əmmaməli namərd dillənmədi ki, ay həşərat, bizim bu əməlimiz Qurana da , İslama da xəyanətdir. Bir dönün yerlə yeksan olmuş müsəlman qəbiristanlıqlarına, içərisinə donuz salınmış, dağıdılmış məscidlərə baxın! Qafqazın tarixində görünməmiş rəzalət baş verdi, iman əhli olmağı ilə, həmişə namaz qılmağı ilə qürrələnən "həmşəri" nacins erməni cəlladla əlbir olub azərbaycanlının qərinələr boyu min əzab-əziyyətlə ərsəyə gətirdiyi xanimanları məhv etdi.

Mən niyə də nifrət və ikrah hissini gizlətməliyəm, nəyin xatirinə susmalıyam? Məhərrəm ayında Kərbəla şəhidləri üçün yas saxlayıb təziyə mərasimləri keçirərək camaatı küçələrə tökən din dəllalları məgər bilmirdilər ki, Azərbaycanda nə qədər günahsız körpə, qoca, qız-gəlin qətlə yetirilib?

> Bütün varlığımla əminəm, həm də bilirəm ki, Azadlıq meydanında şücaətli ordumuzun, zabit korpusunun rəsm keçidləri, Bakı küçələrində ümumxalq sevinci telekanallarda göstəriləndə Arazdan cənubda elə soydaşımız olmayıb ki, riqqətə gəlməsin, qürur hissi duymasın...

Əmmaməli riyakarlar yəni Qarabağda dağıdılmış seyid məzarları barədə eşitməmişdilər? Eşitmişdilər, onların mənfur emissarları utanıbqızarmadan bura gəlib Qarabağ məscidlərinin ancaq farslara məxsus olduğunu dilə gətirmirdilər? Tehranın mərkəzində erməni üçün hər cürə şərait yaratmış fars şovinisti Xocalı cəlladlarına güldən ağır söz deməyib.

İndi bizlərə hədə-qorxu gələn fars rejimi unutmasın ki, İran indiyə qədər nəyə nail olubsa, ancaq və ancaq azəri türklərinin kişilikləri sayəsində nail olub. Fars şovinisti çox da "Şanlı" keçmişindən dəm vurmasın. O, "tarixi" biz yaxşı bilirik. Yarım milyonluq ordu çıxara bilən Əhaməmis xanədanı bir ovuc makedoniyalının qarşısında aciz qalmamışdı? Sasanilərin hərbi imkanları daha artıq idi, amma ümumi sayı heç otuz minə çatmayan ərəb qoşunu o boyda imperiyanı xəritədən birdəfəlik silmədimi? Son İraq-İran müharibəsində də Hümeyni rejimi cəbhələrə nə qədər həddi-buluğa çatmamış cavan azərbaycanlı uşağı tökmüşdü! Bu unudulası rəzalətdir?

Bütün aləm bilir ki, İranın bilavasitə köməyi olmasaydı Ermənistan çoxdan gəbərəcəkdi. Maşın karvanları gecə-gündüz məscidlərə donuz salan, müsəlman körpələrini qıran cəlladlara yanacaq, ərzaq daşıyıb. Tehran ayətüllahlarının ümumiyyətlə İslamdan danışmağa haqları yoxdur.

Gizlətmirəm, uzun müddət "İmpuls", "Nəbz", "Gündəlik Bakı" qəzetinin səhifələrində var-gücümlə ölümdən qurtarmış xalqıma "xər" deyənlərin indiki xələfləri unutmasınlar ki, Azərbaycan daha əvvəlki deyil. Onunla hesablaşırlar, onun müzəffər ordusu da, müzəffər sərkərdəsi, qəddini dikəltmiş xalqı da var.

Şəxsən mənim üçün Azərbaycan naminə ölümə getmiş rus Yuriy Kovalyovun, yəhudi balası A. Aqarunovun xatirələri onlarla ayətüllahdan əzizdir. Yadınıza salın, həlak olmamışdan əvvəl Albert Aqarunov jurnalistə bə deyirdi: "Mən burada yaşayıram, Azərbaycan mənim vətənimdir!" Bu yəhudi balasının sözü, bu yanda da İranın əmmaməli rəhbərləri müsəlman körpələrinin qatillərini bağırlarına basır, onlara eşq elan edirdilər.

Bütün varlığımla əminəm, həm də bilirəm ki, Azadlıq meydanında şücaətli ordumuzun, zabit korpusunun rəsm keçidləri, Bakı küçələrində ümumxalq sevinci telekanallarda göstəriləndə Arazdan cənubda elə soydaşımız olmayıb ki, riqqətə gəlməsin, qürur hissi duymasın.

İslami dəyərləri, ziqiymət mənəvi sərvəti fars şovinizminə qurban verən əmmaməli ağalar yaxşı bilirlər ki, geci-tezi var, sayı qırx milyona çatmış türkün səbr kasası dolmaq üzrədir, Rusiya da bu dəqiqə öz canının hayındadır, ona ancaq axmaqlar arxayın ola bilərlər.

Nəhayət, səlib dünyasının da ikrahla baxdığı erməni naqislərini bağıra basıb islami dəyərləri güdaza vermək Rüstəm övladına başucalığı gətirmir.

**Firuz Haşımov**